**UOT 76**
**https://doi.org/10.59849/2218-4783.2024.2.294**

**ŞƏMSİYYƏ ZALOVA**

# TƏSVİRİ SƏNƏTDƏ MƏHƏMMƏD FÜZULİ DÜHASI

*Azərbaycan təsviri sənətində bir çox ədibin surəti yaradılıb. Dahi Nizaminin, milli libas geyinmiş Natəvanın, mənəviyyat güzgümüz Sabirin. Bu cizgilər ədiblərin yaradıcı simasına xas olan fərdi əlamətləri və sənətkarın ifadə tərzinin rəngarəngliyi ilə göz oxşayır. Eşqin dahi tərənnümçüsü, mənəviyyat carçısı olan Məhəmməd Füzulinin surəti isə əsas etibarilə lirizm və dərin şeiriyyətlə aşılanmışdır. Bu gün bir çox şəhərdə mütəfəkkir şairin heykəl və büstləri sərgilənir, onun bədii obrazının əks olunduğu portretləri və kiçik ölçülü heykəlləri muzeylərimizin ekspozisiyasını bəzəyir.*

**Açar sözlər:** *Məhəmməd Füzuli, təsviri sənət, portret, heykəl.*

**Giriş**. Dünya ədəbiyyatının gövhəri olan M.Füzuli və onun poetikası mövzusu bir çox sənətkarımız üçün bir növ yaradıcılıq imtahanı olmuş, onlarda kompozisiya təfəkkürünün zənginləşməsinə və bədii təxəyyülün inkişafına təkan vermişdir. Bu gün bir çox şəhərdə mütəfəkkir şairin heykəl və büstləri sərgilənir, onun bədii obrazının əks olunduğu portretləri və kiçik ölçülü heykəlləri muzeylərimizin ekspozisiyasını bəzəyir. Həmin sənət əsərləri Füzuli təfəkkürünə, Füzuli dünyagörüşünə xas olan əlamətləri özündə əks etdirir.

**Şairə həsr edilmiş bir-neçə incəsənət nümunəsi haqqında**. Təsviri sənətdə M.Füzuli surəti ilə tanışlığımız 1939-cu ildən başlayır. Həmin ildə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin dekorativ bəzəkli, firuzəyi-göy şirəli naxışlarla bəzədilən eyvanında şairin heykəli ucaldıldı. Sadəliyi, səmimiliyi, mənəvi zənginliyi ilə tamaşaçının qəlbinə yol tapan bu əsər heykəltəraş Fuad Əbdürrəhmanovun nailiyyəti idi [2, s. 267].

F.Əbdürrəhmanov ilk imza atmış və heykəltəraşlıq tarixində M.Füzulinin ilk dəfə olaraq heykəlini hazırlamışdır. Bu heykəl eyni zamanda şairin bizə tanış olan simasının ilk eskizi idi. Çünki M.Füzulinin real cizgilərini əks etdirən portreti müasir dövrədək gəlib çatmamışdır. Bunun səbəbi isə orta əsrlərdə portretə, heykələ dini səbəblərdən mənfi münasibət ilə bağlı idi [1, s. 15]. F.Əbdürrəhmanovun gərgin axtarışları nəticəsində yaratdığı Füzuli obrazı sonradan şairin xalq tərəfindən və rəsmən qəbul olunmuş ilk portreti kimi tanındı.

Heykəl muzeyin eyvanında abidəsi yer alan digər ədiblərin fiqurları ilə eyni ölçü və həcmdə, ayaqüstü pozada işlənmiş, ansambl ilə uyğunlaşdırılmışdır. Sənətkarın həkk etdiyi bu heykəldə şairin yaradıcılıq simasına xas olan fərdi əlamətlər inandırıcıdır. Müəllif ehtiraslı şair qəlbinin incəliklərinə nüfuz etmək istəmiş və buna müvəffəq olmuşdur. Şairin surətini şöhrətləndirən heykəltəraş bu əsərində peşəkarlıq məharətini bir daha nümayiş etdirmişdir.

M.Füzulinin sonrakı dövrlərdə hazırlanan portret və heykəllərində sənətkarlar şairin simasını öz yaradıcılıq süzgəclərindən keçirsələr də, F.Əbdürrəhmanov tərəfindən yaradılmış obrazın ümumi cizgilərinə sadiq qalmışlar.

1963-cü ildə Füzuli dühasının möhtəşəmliyini vurğulayan, Füzuli əzəmətinin duyulduğu daha bir heykəl Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının önündə ucaldıldı. Azərbaycan heykəltəraşlıq sənətində monumental abidələrin ən uğurlu örnəklərindən biri olan bu heykəlin müəllifləri Tokay Məmmədov və Ömər Eldarov idi [4, s. 21].

Heykəldəki lirik əhval-ruhiyyə, incə plastik keçidlər sənətkarların yaradıcılıq dəstixəttini açıq-aşkar nümayiş etdirir. Real natura hissiyyatına malik olan heykəltəraşlar öz sənə-

tinin fədaisi olan şairə xas xüsusiyyətlərin mahir ifaçısı kimi çıxış etmişlər. Onlar qəhrəmanları üçün səciyyəvi duruş, psixoloji vəziyyət seçmiş, surətin xarakteristikasını tamamlayan yardımçı detallardan ustalıqla istifadə etmişlər. Heykəldə ilhamlı şair mənəviyyatı nə qədər mənalı və cazibədardır. Ona baxdıqca bizi onun hiss və həyəcanları düşündürür. Şairin uzun libaslı fiquru, onun əzəmətli qaməti, silueti mavi səma fonunda daha aydın və qabarıq nəzərə çarpır.

Tunc heykəl qranit pyedestal üzərində dayanır. Abidə kompleksinin ümumi hündürlüyü 12 metrə çatır. Memarlarla heykəltəraşların birgə zəhmətinin məhsulu olan heykəlin postamentindəki qorelyefdə şairin "Leyli və Məcnun" əsərindən bir səhnənin təsvir edilməsi heykəlin məzmununu xeyli zənginləşdirmişdir. Görünür, şairin bədii xəzinəmizə bəxş etdiyi töhfələr sənətkarlarımız tərəfindən yüksək qiymətləndirilmişdir.

Fiqurun başını nisbətən sola istiqamətləndirməsi və əlini çənəsinə söykəyib, öz daxili aləminə qapılması şairin duruşundakı kamilliyi vurğulayır. M.Füzulinin bu müdrik duruşu sanki onun dünya poeziya zirvəsini fəth etmiş şair dühasına bədii işarədir.

Füzuli qəzəli, Füzuli ruhu, Füzuli məhəbbəti bir çox sənətkarın ilham mənbəyi olmuşdur. Təsadüfi deyil ki, müsəlman Şərqində ilk opera məhz şairin eyniadlı əsəri əsasında yaradılmış, Füzuli poetikasının işığı hətta musiqi sənətimizi belə aydınlatmışdır [8].

Necə ki, musiqi ahəngdən, şeir avazdan ibarətdir, rəsm əsəri isə həm ahəngdən, həm də avazdan yoğurulur. Bu mənada, klassik musiqinin, klassik ədəbiyyatın vurğunu olan Toğrul Nərimanbəyovun "Azərbaycan müğənniləri" diptixindəki Füzuli surətini təhlil etməsək olmaz (şəkil 1).



**Şəkil 1.**

T.Nərimanbəyovun mürəkkəb təsvir sxemini kompozisiya şəklində tamaşaçıya çatdırmaq bacarığı onun bu əsərinin belə mükəmməl alınmasına səbəb olmaya bilməzdi. Rəssamın dəsti-xəttinin unikallığı bu tabloya xüsusi parlaqlıq verir. Şairin sanki canlı olan, ülvi fikirlər ifadə edən çöhrəsi göstərir ki, rəssamın ən çox sevdiyi qəhrəmanlarından biri də M.Füzuli

olmuşdur [6, s. 41]. T.Nərimanbəyovun öz illüstrativ üslubuna sadiq qalması şairin mistik üslubu ilə səsləşir. Rəssamın bu üslubu yenə də tamaşaçını heyran edir və personajla izləyici arasında dialoq başlayır.

Rəssamın personajını tünd kolorit və dekorativlik daxilində təhlil və təqdim etməsi heyranedicidir. Bu dekorativlik şairi çərçivə kimi haşiyələyərək onun simasına tamlıq, bütövlük bəxş edir. Detalların çoxluğuna baxmayaraq, kompozisiyanın fikir mərkəzini şairin surəti təşkil edir. Tablonu izlərkən sanki şairin mənəvi aləminə xəyalən gəzintiyə çıxmış oluruq. Mürəkkəb rənglər, ornamentallıq, qaval və kamança səsinin ahəngi içərisində sanki şairin qəzəllərini eşidirik. Rənglərin poeziyasını yaradan sənətkarın fırçasının gücüdür ki, onun hər tablosunu izlərkən sanki nağıllar aləminə səyahət etmiş oluruq.

Görkəmli rəssam Səttar Bəhlulzadə portret janrına az-az müraciət etsə də, M.Füzulinin portretinə bütün yaradıcılığı boyu dəfələrlə qayıtmışdır [5, s. 10]. "Mənim bir rəssam kimi yetişməyimdə üç müdrik sənətin – qədim xalça və miniatür sənətimizin, bir də ki, Füzulinin odlu-alovlu poeziyasının böyük rolu olub" deyə qeyd edən rəssamın Füzuli poeziyasına bəslədiyi ülvi məhəbbət onun qrafika və rəngkarlıq tablolarında öz əksini tapmışdır [5, s. 29]. Hətta müasirlərinin söylədiklərinə görə rəssam bəzən dahiyanə əsərləri üzərində işləyərkən M.Füzulinin qəzəllərini zümzümə edərmiş [5, s. 32].

S.Bəhlulzadənin "Qəzəlxan" portretindəki pastel tonlu rəng çalarlarını lüzumsuz alabəzək adlandırmaq olmaz. Rəssamın bu əsərində hər bir rəngin öz mənası, öz fəlsəfəsi var. Tablodakı rəng palitrası, şeiriyyət, dinamika sanki portreti hərəkətləndirir, dilə gətirib danışdırır.

Sıralanmış oxra, yaşıl, qəhvəyi rəng uyğunluğuna xüsusi meyl göstərən rəssamın bu lövhəsində parlaq ağ zolaqlar da görmək mümkündür. Həmin rənglərin ahəngi ilə cingiltili təzad təşkil edən bu ağ ləkələr koloritin daha mənalı çıxmasına səbəb olur. Rəssam surətinin psixologiyasının təhlilinə xüsusi fikir verir, həmin dramatik boyalarla şairi diqqətimizə çatdırır.

Detalları incə xətlərlə rəsm edilmiş bu əsərdə S.Bəhlulzadə personajını qəmgin əhvalruhiyyədə təqdim edir. Onun sifəti ciddi, alnını kəsib keçən qırışlar ifadəli və mənalıdır. Şair sanki sevimli surətlərini düşünür. Rəssamın obrazı ümumiləşdirib, xırdalıqları qabardaraq sənət baxımından tutarlı əsər yaratmaq qabiliyyəti bu tabloda da nəzərə çarpır (şəkil 2).



**Şəkil 2.**

S.Bəhlulzadə Füzuli və onun nakam məhəbbət yaşamış qəhrəmanları – Leyli və Məcnuna saysız-hesabsız əsərlər ithaf etmişdir. “Füzulinin portreti”, “Şair kədəri”, “Məcnun ağlar, şam ağlar”, “Leylinin sorağında”, “Zəncirlənmiş arzular” kimi əsərlərini izlərkən görürük ki, rəssam izləyicidə nəcib duyğular doğuran motivlər axtarmış və buna nail olmuşdur. Rəssamın bu mövzuya həsr etdiyi, müəyyən mənada pərakəndə və təxmini çəkilmiş lövhələrini belə həyəcansız izləmək qeyri-mümkündür. Bir sözlə, Füzuli əsl məhəbbəti sözlərlə təsvir edən rəssam idi, Səttar isə rənglər dünyasının şairi idi.

Milli illüstrasiya sənətimizin başlıca mövzusu mücərrəd rəvayətlər deyil, bəşəri motivlər olmuşdur. Görkəmli rəssamımız Mikayıl Abdullayev də M.Füzuli poeziyasına ara-sıra müraciət etmiş, onun “Leyli və Məcnun” poemasına illüstrasiyalar həsr etmişdir. Rəssam eyni zamanda “Leyli və Məcnun” operasına bədii tərtibat vermişdir [3, s. 38]. “Hər gün ən azı dörd saat mütaliə edirəm, iki saat yazıram, səkkiz saat molbert önündə dayanıram” deyən sənətkar görünür, Füzuli poeziyası ilə də yaxından tanış olmuşdur [7].

Bu gün Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin dahi şairə həsr olunmuş zalında şairə ithaf edilmiş dekorativ-tətbiqi sənət nümunələri, heykəllər, portretlərlə birlikdə süjetli bir tablo da diqqətimizi çəkir. Rəssam Əyyub Məmmədovun fırçasının məhsulu olan və “Azərbaycanlıların Bağdada köçü” adlanan bu tablo M.Füzulinin atası Süleymanın ailəsi ilə birlikdə köç etdiyi tarixi təqdim edən maraqlı eksponatdır. Boyaların ahəngi, ifa tərzi ilə fərqlənən bu tabloda şairin yaşadığı dövrün nəbzi və nəfəsi duyulur (şəkil 3).



**Şəkil 3.**

**Nəticə**. Azərbaycan rəssamlıq sənətinin mənşəyini, tarixi köklərini tədqiq edərkən dahi Füzulinin əsərlərində rəssamlıq, xəttatlıq sənətlərinə həsr olunan beytlər, misralar qarşımıza çıxır. Bu məqamda deyə bilərik ki, sənətkarlarımızın M.Füzuli irsinə göstərdiyi maraq, şairə ithaf edilmiş saysız-hesabsız sənət əsərləri təsadüfən yaranmayıb.

## ƏDƏBİYYAT

1. Fuad Əbdürrəhmanov. Bakı: Sərvət, 2013, 104 s.
2. Kərimov K, Əfəndiyev R, Rzayev N, Həbibov N. Azərbaycan incəsənəti. Bakı: İşıq, 1992, 344 s.

3. Mikayıl Abdullayev. Bakı: Sərvət, 2013, 104 s.
4. Ömər Eldarov. Bakı: Sərvət, 2013, 96 s.
5. Səttar Bəhlulzadə. Bakı: Sərvət, 2013, 104 s.
6. Toğrul Nərimanbəyov. Bakı: Sərvət, 2013, 104 s.
7. https://old.xalqqazeti.com/az/news/culture/17875
8. https://millikimlik.az/2021/2820/

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: wems.zal@mail.ru***

**Shamsiya Zalova**

## THE GENIUS OF MUHAMMAD FUZULI IN FINE ARTS

The images of many writers have been created in Azerbaijani fine arts. The genius of Nizami, Natavan dressed in a national costume, our spiritual mirror Sabir. These features attract attention with individual features inherent in the creative image of writers, the colorfulness of the expressive manner of the artist. The image of Muhammad Fuzuli, a brilliant singer of love and herald of spirituality, is imbued with lyricism and deep poetry. Today, statues and busts of the poet-thinker are exhibited in many cities, portraits and small sculptures reflecting his artistic image adorn the expositions of our museums.

**Keywords:** *Muhammad Fuzuli, fine arts, portrait, sculpture.*

**Шамсия Залова**

## ГЕНИЙ МУХАММЕДА ФИЗУЛИ В ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ

В азербайджанском изобразительном искусстве созданы образы многих писателей. Гений Низами, Натаван, одетая в национальный костюм, наше духовное зеркало Сабир. Эти черты привлекают внимание индивидуальными особенностями, свойственными творческому облику писателей, красочностью выразительной манеры художника. Образ Мухаммеда Физули, гениального певца любви и глашатая духовности, в своей основе проникнут лиризмом и глубокой поэзией. Сегодня статуи и бюсты поэта-мыслителя выставлены во многих городах, портреты и скульптуры небольших размеров, отражающие его художественный образ, украшают экспозиции наших музеев.

**Ключевые слова:** *Мухаммед Физули, изобразительное искусство, портрет, скульптура.*

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 19.09.2024**
**Son variant15.10.2024**